# Vətəndaşların suallarını "Beynəlxaq Əlillər Cəmiyyəti" İctimai Birliyi cavablandırır

**- Alimenti vaxtında ödəmədiyinə görə şəxslər məsuliyyətə cəlb oluna bilərmi?**

***Cavid Əsgərov,***

*II qrup əlil, ADNA-nın dosenti, Bakı şəhəri*

- Bəli, Ailə Məcəlləsinin 108-ci maddəsinə əsasən, aliment ödənilməsi barədə saziş üzrə aliment ödəməli olan şəxsin təqsiri üzündən aliment üzrə borclar yarandıqda təqsirkar şəxs həmin sazişlə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

Məhkəmə qətnaməsi üzrə aliment ödəməli olan şəxsin təqsiri üzündən aliment üzrə borclar yarandıqda təqsirkar şəxs aliment alana ödənilməmiş alimentin məbləğinin faizi məbləğində ötürülmüş hər gün üçün dəbbə pulu ödəyir.

Aliment alan həmçinin aliment öhdəliklərinin vaxtında yerinə yetirilməməsi nəticəsində yaranmış itkilərin dəbbə pulu ilə ödənilməmiş hissəsinin ödənilməsini də tələb edə bilər.

**- Torpaq sahəsi üzərində birgə hüquqlar hansı hallarda yaranır?**

***Afət İbrahimova,***

*Bakı şəhəri*

- Torpaq Məcəlləsinin 52-ci maddəsinə əsasən, torpaq sahəsi üzərində birgə hüquqlar iki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində torpaq sahəsi olduqda, habelə mülkiyyətçi, istifadəçi və ya icarəçi arasında qanunvericiliklə müəyyən edilmiş qaydada bağlanan müqavilə əsasında onlara məxsus olan torpaq sahələrinin birləşdirilməsi zamanı yaranır.

İki və daha çox şəxsin mülkiyyətində, istifadəsində və icarəsində olan torpaq sahəsi həmin şəxslərin birgə mülkiyyət, birgə istifadə və birgə icarə hüququna məxsus ola bilər. Birgə mülkiyyətdə olan torpaq sahələrinə sahiblik, onlardan istifadə və onlar barəsində sərəncam verilməsi Mülki Məcəllənin birgə mülkiyyət hüququ haqqında müddəalarına uyğun olaraq həyata keçirilir.

**- Həyat yoldaşım ötən il dekabrın 15-də vəfat edib. DSMF-nın İmişli Rayon Şöbəsindən mənə 225 manat dəfn xərci ödənildi. Bildiyimə görə isə dəfn xərci mərhumun ailəsinə onun pensiyasının 6 aylıq məbləği həcmində verilməli idi. Buna aydınlıq gətirməyinizi istərdim.**

***Rəna Sadıqova,***

*İmişli rayonu, Məmmədli kəndi*

- "Əmək pensiyaları haqqında" Qanunun 42.2-ci maddəsinə əsasən, əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə vəfat etmiş pensiyaçının əmək pensiyasının baza və sığorta hissəsinin üçaylıq məbləğində dəfn üçün müavinət verilir. "Dövlət qulluqçularının pensiya təminatı haqqında " Qanunun 14.2-ci maddəsində isə bu ödəmə vəfat edən şəxsin pensiyasının 6 aylıq məbləği həcmində müəyyən olunub. Əgər sualınızda göstərildiyi kimi, həyat yoldaşınız dövlət qulluqçusu kimi pensiya alırdısa, ona "Dövlət qulluqçularının pensiya təminatı haqqında "Qanunun 14.2-ci maddəsində nəzərdə tutulan qaydada dövlət qulluqçusu pensiyaçısı kimi təyin olunmuş pensiyasının 6 aylıq məbləğində dəfn xərci ödənilməlidir.



**- Məzuniyyətdə olan içşi öz arzusu ilə vaxtından əvvəl məzuniyyətdən geri qayıda bilərmi və əgər qayıtmaq hüququ varsa, həmin dövrün əməkhaqqısı hansı qaydada hesablanır?**

***Rafiq Axundov,***

*II qrup əlil, Bakı şəhəri*

- Əmək Məcəlləsinə görə, məzuniyyətdə olan işçinin öz arzusu ilə vaxtından əvvəl məzuniyyətdən geri qayıtma hüququ yoxdur. Bu Məcəllənin 137-ci maddəsinin 4-cü bəndinə əsasən, işçinin təşəbbüsü ilə əmək məzuniyyətindən geriçağrılma yalnız işəgötürənin mülahizəsi ilə həyata keçirilə bilər.

Əmək Məcəlləsinin 137-ci maddəsinin 2-ci və 4-cü bəndlərinə əsasən, müstəsna hallarda - istehsalatda baş vermiş qəzanın nəticələrinin aradan qaldırılması, habelə təxirəsalınmaz işlərin görülməsi zərurəti olduqda əmək məzuniyyətində olan işçi işəgötürən tərəfindən ancaq onun razılığı ilə məzuniyyətdən geri çağrıla bilər. Əmək məzuniyyətindən geriçağırma əmrlə (sərəncamla, qərarla) rəsmiləşdirilməlidir. Əmək məzuniyyətindən geri çağrılan işçiyə tərəflərin razılığı ilə ya işlədiyi məzuniyyət günlərinin əvəzində ödənişsiz əlavə istirahət günləri (əvəzgün) verilir, ya da işə başladığı gündən etibarən işçiyə əməkhaqqı hesablanır, istifadə edilməmiş məzuniyyət günlərinə düşən məzuniyyət pulunun məbləği ondan tutulur və məzuniyyətin istifadə edilməmiş günləri gələcəkdə müəyyən edilmiş vaxtda verilərək bu Məcəllənin 140-cı maddəsində nəzərdə tutulmuş qaydada yenidən məzuniyyət pulu hesablanıb ödənilir.

**- Valideynlər hansı hallarda valideynlik hüquqlarından məhrum edilə bilər?**

***Sevda Əliyeva,***

*II qrup əlil, Bakı şəhəri*

- Valideynlər (onlardan biri) valideynlik hüquqlarından aşağıdakı hallarda məhrum edilə bilər:

- öz valideynlik vəzifələrini yerinə yetirmədikdə;
- alimenti qəsdən ödəmədikdə;
- heç bir üzürlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisələrindən və digər analoji müəssisələrdən götürməkdən imtina etdikdə;
- valideynlik hüquqlarından sui-istifadə etdikdə;.
- uşaqlarla amansız davrandıqda, onları fiziki və ya psixi təzyiq altında saxladıqda;
- xroniki alkoqol və narkomaniya xəstəsidirsə;
- uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə.

**- Torpaq sahəsinin bağışlanması qanunvericiliklə tənzimlənirmi?**

***Hacı İlham Məmmədzadə,***

*Bakı şəhəri*

- Bəli, Torpaq Məcəlləsinin 91-ci maddəsinə əsasən:

1. Torpağın mülkiyyətçisi Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş qaydada və formada bağışlama müqaviləsi ilə həmin torpaq sahəsini və ya onun bir hissəsini əvəzsiz olaraq Azərbaycan Respublikasının hər hansı vətəndaşının və ya hüquqi şəxsin, habelə dövlətin və ya bələdiyyənin mülkiyyətinə verə bilər.

2. Dövlət və bələdiyyə torpaqlarının bağışlanmasına yol verilmir. Bu torpaqlar üzərində istifadə və icarə hüquqları qanunvericiliklə müəyyən edilmiş qaydada bağışlana bilər.

3. Torpaq sahəsinin bağışlanması qaydası Azərbaycan Respublikasının mülki qanunvericiyi ilə tənzimlənir.

**-Hansı şəxslər təhsil müəssisəsinin təsisçisi ola bilər?**

***Əminə İbrahimova,***

*Bakı şəhəri*

- "Təhsil haqqında" Qanunun 15-ci maddəsinə əsasən, təhsil müəssisəsinin təsisçisi (təsisçiləri) dövlət, bələdiyyələr, Azərbaycan Respublikasının və xarici dövlətlərin hüquqi şəxsləri, Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər ola bilərlər. Təsisçiləri əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər olan təhsil müəssisələrinin professor-müəllim heyətinin azı 80 faizini Azərbaycan Respublikasının vətəndaşları təşkil etməlidir. Xüsusi təyinatlı təhsil müəssisələrinin təsis edilməsi qaydaları və onların siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Təsisçinin məsuliyyəti, səlahiyyət dairəsi, təhsil müəssisəsi ilə qarşılıqlı öhdəlikləri Azərbaycan Respublikasının qanunvericiliyi, təsis müqaviləsi və təhsil müəssisəsinin nüzamnaməsi ilə müəyyən edilir.

**- Əmək pensiyaçısı vəfat etdikdə dəfn üçün müavinətin verilməsi hansı qaydada aparılır?**

***Məmmədağa Abdullazadə,***

*II qrup əlil, Bakı şəhəri*

- Əmək pensiyaçısı vəfat etdikdə, onun ailəsinə vəfat etmiş pensiyaçının əmək pensiyasının baza və sığorta hissəsinin üçaylıq məbləğində dəfn üçün müavinət verilir.

Əmək pensiyaçısını onun ailə üzvlərinə aid olmayan şəxslər dəfn etdikdə, dəfn üçün müavinət həmin şəxslərə ödənilir. Dəfn üçün müavinətin ödənişinin maliyyələşdirilməsi əmək pensiyası ödənişinin maliyyə mənbələrinə uyğun qaydada həyata keçirilir.

**-2007-ci ilin dekabr ayından bələdiyyə üzvüyəm. Bundan əvvəlki iş yerlərində əmək stajım 20 ilə yaxındır. Bilmək istərdim ki, əmək məzuniyyətinə çıxanda mənə iş stajına görə neçə təqvim günü əlavə məzuniyyət verilməlidir?**

***Ordubadi Cavanşir Rzazadə,***

*Bakı şəhəri*

- Azərbaycan Respublikası Əmək Məcəlləsinin 114-cü maddəsinin 2-ci hissəsinə görə işçilərə ödənişli əsas məzuniyyət 21 təqvim günündən az olmayaraq verilməlidir. Bu Məcəllənin 114-cü maddəsinin 3-cü hissəsinin B bəndinə əsasən isə məsul vəzifələrdə (vəzifənin məsulluğu işin xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir) qulluq keçən dövlət qulluqçularına, müəssisənin rəhbər işçilərinə və mütəxəssislərinə ödənişli əsas məzuniyyət 30 təqvim günü müddətində verilməlidir. Bir faktı da qeyd etmək istəyirəm ki, əmək məzuniyyəti dövrünə təsadüf edən iş günü hesab olunmayan bayram günləri məzuniyyətin təqvim günlərinə daxil edilmir və ödənilmir. AR Əmək Məcəlləsinin 116-cı maddəsinə əsasən, əmək stajına görə əlavə məzuniyyətin müddəti işçinin bir müəssisədə işəgötürənlə əmək müqaviləsi bağlayaraq faktik olaraq işlədiyi dövrə əsasən müəyyən edilir. Bu əmək stajına işçinin əmək müqaviləsi üzrə faktik işlədiyi müddətdən başqa yalnız əmək qabiliyyətini müvəqqəti itirdiyi, habelə bu Məcəllənin 179-cu maddəsində nəzərdə tutulan hallarda iş yeri və orta əməkhaqqı saxlanıldığı dövrlər daxil edilir. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 116-cı maddəsinin ikinci hissəsində əmək stajına görə əlavə məzuniyyətin müddətini məhdudlaşdıran "bir müəssisədə" müddəası Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinə və 149-cu maddəsinin I hissəsinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilmişdir." (Azərbaycan" qəzeti, 1 dekabr, 2000-ci il, № 276, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı № 2/2001). Əmək Məcəlləsinin bu maddəsinə əsasən, əmək stajından asılı olaraq işçilərə:

beş ildən on ilədək əmək stajı olduqda -2 təqvim günü;

on ildən on beş ilədək əmək stajı olduqda - 4 təqvim günü;

on beş ildən çox əmək stajı olduqda - 6 təqvim günü müddətində əlavə məzuniyyət verilir.

AR Əmək Məcəlləsinin 132-ci maddəsinə əsasən, əmək məzuniyyətinə hüquq verən əmək stajına işçinin faktik işlədiyi vaxt və aşağıdakı dövrlər daxil edilir: iş yerinin və bu Məcəllədə nəzərdə tutulmuş hallarda əməkhaqqının saxlanılması şərti ilə işçinin işdən ayrıldığı dövr; qanunsuz və əsassız işdən çıxarılmaqla, yaxud başqa işə keçirilməklə əlaqədar işə bərpa edilən işçilərin məcburi işburaxma dövrü; əmək qabiliyyətinin müvəqqəti itirildiyi dövr; təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində işdən (vəzifədən) azad edilmiş və ya kənarlaşdırılmış və müəyyən edilmiş qaydada tam bəraət almış işə (vəzifəyə) bərpa edilən şəxsin məcburi işburaxma dövrü və ya həbsdə olduğu dövr. Bu Məcəllənin 127-ci maddəsində nəzərdə tutulan qismən ödənişli sosial məzuniyyət müddəti, habelə azadlıqdan məhrum etmədən islah işlərinə məhkum edilən şəxslərin cəza çəkdiyi müddət məzuniyyət hüququ verən əmək stajına daxil edilmir.

Yuxarıda göstərilənləri əsas tutaraq bildirirəm ki, AR Əmək Məcəlləsinin 114 və 116-cı maddəsinə əsasən, sizə 30 təqvim günü müddətində ödənişli əsas məzuniyyət və 6 təqvim günü müddətində əlavə məzuniyyət olmaqla cəmi 36 təqvim günü ödənişli məzuniyyət verilməlidir.

# Yazdıqlarımızın əks-sədası

**Dəyərli oxucular!**

Qəzetimizin 29 sentyabr 2009-cu il tarixli № 03 (39) -cü sayında "İçərişəhərin "pulyığan" şlaqbaumu" sərlövhəli tənqidi yazı dərc olunmuşdu. Həmin tənqidi yazı Qarabağ müharibəsi əlilləri və digər kateqoriyadan olan əlil və veteranların redaksiyamıza etdikləri şikayəti əsasında hazırlanmışdı. Yazıda əlillərin öz idarə etdikləri maşınla İçərişəhərə daxil olmaq istəyərkən onlardan giriş üçün bir saata görə 2 manat, sonrakı hər bir saata görə isə 1 manat pul tələb edilməsindən bəhs olunurdu. Eyni zamanda, həmin yazıda redaksiya İçərişəhərdə hərəkət üçün xüsusi hazırlanmış nəqliyyat vasitələrindən istifadəni təşkil etmək təklifi ilə çıxış etmişdi. Həmin tənqidi yazı qəzetdə işıq üzü gördükdən sonra tədbir görülməsi üçün tərəfimizdən Azərbaycan Respublikasının Nazirlər Kabineti Yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinə göndərilmişdir. Bu günlərdə sözügedən tənqidi yazı ilə əlaqədar həmin İdarə tərəfindən redaksiyamıza cavab gəlmişdir. Həmin məktubu olduğu kimi dərc edirik.



**Hörmətli Tahir müəllim!**

"Əlillər Dünyası" ictimai-siyasi qəzetinin 2009-cu il 29 sentyabr tarixli 03 (39) nömrəli buraxılışında dərc edilən yazıya dair münasibət bildirilməsi barədə məktubunuza Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsində baxılmışdır.

Məlum olduğu kimi, İçərişəhərin ərazisində nəqliyyat vasitələrinin intensiv və tənzimlənməyən hərəkəti burada yerləşən qədim bina və abidələrin dayanıqlığına ciddi təsir göstərməklə onların tədricən dağılmasına səbəb olurdu. Eyni zamanda, nəqliyyat axını piyadaların və turistlərin onsuz da dar küçələrdə təhlükəsiz hərəkət etməsi üçün maneələr yaradırdı. Yaranmış şəraitdə İçərişəhərin ərazisindəki tarixi-memarlıq abidələrin mühafizəsinin vacibliyini nəzərə alaraq, İdarə tərəfindən cari ilin sentyabr ayından bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinə başlanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 may tarixli 574 nömrəli Fərmanı ilə təsdiq edilmiş İdarənin Əsasnaməsinin 8.13-cü bəndinə müvafiq olaraq İdarə Qoruq ərazisindəki nəqliyyat hərəkətini müvafiq qaydada təşkil etmək, abidələrə yaxın olan və ya onların mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaratdıqda, onların məhdudlaşdırılması və ya qadağan edilməsi üçün qanunvericiliyə uyğun qaydada tədbirlər görmək səlahiyyətinə malikdir.

Nəqliyyat vasitələrinin hərəkətinin tənzimlənməsini qanunamüvafiq şəkildə həyata keçirmək məqsədilə "İçərişəhər" Dövlət Tarix-Mümarlıq Qoruğunun ərazisindəki avtomobil yollarından istifadə qaydaları" hazırlanaraq təsdiq edilmişdir.

Qaydalara əsasən Qoruğun sakinləri olmayan şəxslərə məxsus nəqliyyat vasitələrinin əraziyə girişi ödənişli əsaslarla həyata keçirilir.

Bununla yanaşı, nəzərinizə çatdırırıq ki, Qoruq sakinlərinin, əlillərin və digər imtiyazlı şəxsləri Qoruq ərazisində yaşadıqları və ya getdikləri ünvanlara pulsuz çatdırılması üçün yaxın müddət ərzində elektromobil vasitələri alınaraq istifadəyə veriləcəkdir.

**Xahiş edirik nəzərə alasınız.**
**Hörmətlə,**
**Eldar Primov**
**Aparatın rəhbəri**

***Hazırladı:***
***Dünyamin Mürsəl***

# BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİR KEÇİRİLMİŞDİR

AzərTAc-dan verilən məlumata görə, Dekabrın 1-də Natəvan adına uşaq kitabxanasında 3 dekabr - Beynəlxalq Əlillər günü münasibətilə tədbir keçirilmişdir.

Kitabxananın direktoru Mətanət Qasımova, Q.Musabəyov adına qəsəbə uşaq kitabxanasının direktoru İradə Hüseynova və başqaları Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın uşaqlara qayğısından danışmışlar.

Tədbirdə 158 nömrəli məktəbin şagirdləri ədəbi-bədii kompozisiya nümayiş etdirmiş, mahnılar, şeirlər, səhnəciklər səsləndirilmişdir.




Azərbaycanda fəaliyyət göstərən "Gəncliyə Yardım Fondu" Əziz Mahmud Hüdayi vəqfinin dəstəyi və QHT-lər vasitəsi ilə 20 ton qurban ətinin Qafqaz bölgəsində ehtiyac sahiblərinə paylanmasını həyata keçirmişdir. Gürcüstanda azərbaycanlıların kompakt yaşadığı bölgələrdə və xüsusilə də qaçqın şəhərciklərində qaçqın və məcburi köçkünlərimizi Qurban Bayramında sevindirmişdir. Fondun mərkəzində də Qurban paylarının bir qismi əvvəlcədən müəyyənləşdirilmiş kasıb ailələrinə paylanmışdır.

# MURMANSKDA UNUDULMAYAN AZƏRBAYCAN...

AzərTAc-dan verilən məlumata görə, Kola yarımadasında yaşayan azərbaycanlılar Ümumrusiya Azərbaycan Konqresinin Murmansk bölməsinin Sverdlovsk küçəsində yerləşən ofisinə gedən yolu yaxşı tanıyırlar. İndi çox vaxt buraya Azərbaycan və Rusiya xalqlarının dostluğu muzeyi kimi baş çəkirlər. Ofisin divarları qəzet və jurnal səhifələrindən kəsilib götürülmüş və Murmansk vilayətində yaşayan 25 min azərbaycanlının həyatından bəhs edən məqalə və məlumatlarla bəzədilmişdir. Gözəl çərçivəyə alınmış nə az, nə çox 200 məqalə! Murmans azırbaycanlıları "Mubrmanski vestnik", "Bakinski raboçi", "Komsomolskaya pravda", "Komsomolets Zapolyarya", "Azərbaycan", "Respublika", "Xalq qəzeti", "Azerbaydjanski konqres" qəzetlərində yer almış məqalələri, informasiya agentliklərinin və Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc), "Azerbaydjanskiye novosti"nin məlumatlarını, "Murmansk sity", "Street Club Murmansk" jurnallarındakı rəngarəng fotoreportajları sevə-sevə toplamışlar.

Azərbaycan jurnalisti və Azərbaycan diasporunun fəal nümayəndəsi Əlihüseyn Şükürov xəbər verir ki, buraya gələn hər bir qonaq həmvətənlərimizin uzaq Şimalın iqtisadiyyatına, elm və mədəniyyətinə verdikləri töhfə, onların Qırmızı Bayraqlı Şimal Donanması gəmilərində çətin xidmətləri, idman və yaradıcılıq nailiyyətləri barədə jurnalistlərin səmimi söhbətlərini yaddaşlarında təzələmək imkanı əldə edirlər. Günəşli Azərbaycanın təmsilçilərinin öz bayramlarını və ənənələrini sərt təbii iqlim şəraitində necə qoruyub saxladıqları barədə oxuyanda təsirlənməmək olmur.

Ayrıca stenddə ana dilində kitablar və dərsliklər, Murmansk vilayəti qubernatorunun Rusiyanın şimal-qərb regionunun inkişafına həımvətənlərimizin verdikləri töhfələrə görə fəxri fərmanları və diplomları nümayiş etdirilir.

Əlbəttə, ən görünən yerdə Rusiya Federasiyasının və Azərbaycan Respublikasının prezidentləri Dmitri Medvedevin və İlham Əliyevin, habelə mürəkkəb postsovet dövründə iki xalq arasında qarşılıqlı münasibətlərin təməlini qoymuş ümummilli lider Heydər Əliyevin portretləri asılmışdır. Murmanskda unudulmayan Azərbaycanın və uzaq Şimal diyarının rəngarəng fotomənzərələri ekspozisiyaya lirik bir ab-hava gətirir.